DÜNYA

# Tehranda daha çox kafe bağlanır

1 saat öncə




Tehranda kafe

Tehranda çalışan kafe əməkdaşlarından biri paytaxtdakı Vanak Park kompleksində kafelərin bağlandığını bildirib.

Barista və kafe idarəçiliyi üzrə təlimçi **Məsud Delpəsənd** yayımladığı videoda İranda iqtisadi vəziyyətin ağırlaşmasından danışır, Vanak Parkdakı kafelərin möhürlənərək bağlandığını, "ən azı 200 nəfərin işsiz və gəlirsiz qaldığını" bildirib.

Delpəsənd videoda kafelərin bağlanmasına etiraz edəndən sonra avqustun 25-də Instagram hesabında paylaşdığı hekayədə "heç kimi təhrik etmək və ya etiraz etmək niyyətinin olmadığını" yazıb, bağlanan istənilən kafedə problem ola biləcəyini əlavə edib.

Rəsmi orqanlar onun paylaşımını tənqid edib, videonu yayan istənilən səhifənin “düşmən mövqedə” olduğunu, videonun “sui-istifadə məqsədilə” hazırlandığını bildiriblər.

Delpəsənd video səhifəsindən silindikdən sonra bu açıqlamanı yayıb.

Videonu ilk dəfə paylaşanda isə yazmışdı ki, “belə iqtisadi şəraitdə, xammalın baha olduğu, icarə haqlarının kəskin artdığı... bir vaxtda Vanak Parkdakı kafeləri bağlamaqda məqsəd nədir?”

Son günlər İranda “məcburi hicab” qaydalarının pozulması bəhanəsi ilə kafe və digər biznes obyektlərinin möhürlənərək bağlanmasının yeni dalğası başlayıb. Bu isə tənqidlərə səbəb olub.

## Tehranda kafelərin bağlandığı bildirilir

Dövlət orqanları Tehranın Sənayi və İranşəhr küçələrində bir neçə kafeni möhürləyərək fəaliyyətini dayandırıb. Bunu İranda sosial şəbəkə istifadəçilərinin yaydığı məlumatlar sübut edir.

İranşəhr küçəsindəki kafelərdən birində çalışan ssenarist **Cəmilə Darolşəfayi** də bu barədə X sosial şəbəkəsində paylaşım edib. O yazıb ki, kafeyə bundan əvvəl səlahiyyətli şəxslər gələrək obyekti möhürləyəcəkləri barədə xəbərdarlıq ediblər.

Hakimiyyət gənclər arasında populyar ictimai məkanlar sayılan kafelərə qoyulan son məhdudiyyətlərlə bağlı, hələlik, rəsmi açıqlama verməyib. Amma sosial şəbəkələrdə yayılan məlumatlarda bu addım İranda məcburi hicab qaydalarının icrası ilə əlaqələndirilir.

"İctimai əxlaq normalarına əməl olunmaması", "ictimai keçidlərin tutulması" və "ticarət qaydalarının pozulması" digər səbəblər kimi göstərilir.

Jurnalist **Bəhmən Darolşəfayi** də Sənayi küçəsində bir neçə kafenin möhürləndiyini açıqlayıb.

İran hakimiyyəti son illər ölkədə məcburi hicab qaydalarına riayət edilmədiyini əsas gətirərək kafe və digər ictimai məkanların fəaliyyətini dəfələrlə dayandırıb. Bu praktika geniş tənqid olunub.




Tehranda kafe

## 'Özümü küçədəkindən daha azad hiss edirəm'. İranda kafelərə təzyiq artır

Gənc iranlılar üçün kafelər sığınacaq kimidir – sosial azadlıqların sərt məhdudlaşdırıldığı ölkədə insanların görüşüb ünsiyyət qurduğu, özlərini nisbətən rahat hiss etdikləri məkanlardandır.

**“Müxtəlif xarakterli insanların eyni məkanda ünsiyyət qurduğunu gördüyüm üçün kafelərə getməyi sevirəm”**, – Tehranda yaşayan 19 yaşlı **Aynaz** AzadlıqRadiosunun Radio Fərda xidmətinə deyib.

“Təbii ki, sevdiyim məkan var, amma fərqli atmosferli məkanları da sınamağı xoşlayıram. Kafelərdə özümü küçədəkindən daha azad hiss edirəm”, – təhlükəsizlik səbəbindən yalnız adını açıqlayan Aynaz əlavə edib.

Amma vaxtilə xüsusilə gənclər arasında şəhər həyatının ayrılmaz hissəsinə çevrilmiş İranın kafe mədəniyyəti indi dərinləşən iqtisadi böhran və hakimiyyətin artan təzyiqləri ilə üzləşib.

## İqtisadi böhran

Sürətlə artan inflyasiya qəhvə və qida məhsullarını kəskin bahalaşdırıb. Beynəlxalq Valyuta Fondunun proqnozuna görə, İranda illik inflyasiya bu il təxminən 69 faizə çatacaq. Bu, 1979-cu il İslam İnqilabından bəri ən yüksək göstəricidir.

İllərlə davam edən beynəlxalq sanksiyalar və hökumətin zəif iqtisadi idarəçiliyi ölkə iqtisadiyyatını ciddi zəiflədib. Fevralın sonundan ABŞ və İsraillə müharibə isə 90 milyon əhalisi olan İranı iqtisadi çöküş həddinə çatdırıb.



İranda kafe

Bu vəziyyət kafe sektoruna da təsir edib. Sahibkarlar artan xərclərlə üzləşir, müştərilər xərclərini azaltmağa məcbur qalırlar.

Tehranda yaşayan bir qadın Radio Fərda-ya bildirib ki, 250 qram qəhvənin qiyməti artıq 15 milyon riala (təxminən 8 dollar) çatıb. Bu isə ötən illə müqayisədə iki dəfə çoxdur.

**“Təsəvvür edin, qəhvənin özü bu qədər bahadırsa, kafedə qiymətlər nə qədər yüksəlib”,** – adının açıqlanmasını istəməyən qadın deyib.

Tehranda yaşayan 41 yaşlı bir kişi isə bildirib ki, ABŞ və İsrail fevralın 28-də hücumlara başlayandan demək olar, hər gün kafelərə gedirdi. Bu müddətdə hakimiyyətin tətbiq etdiyi internet məhdudiyyəti təxminən üç ay qüvvədə olub:

**“Kafelər əhvalımızı qoruyub saxlaya bildiyimiz, dostlarla görüşdüyümüz, özümüzü təcrid olunmuş hiss etmədiyimiz yeganə məkan idi”.**

O, sadəcə sifarişlərini dəyişdiyini söyləyib:

“Məsələn, daha bahalı qəhvə əvəzinə çay sifariş edirəm”.

## Siyasi təzyiqlər

Hakimiyyət kütləvi yanvar etirazlarından, ABŞ və İsraillə müharibədən sonra müxalif fikirlərə qarşı repressiyalar çərçivəsində kafeləri də hədəfə alıb.

İllərdir İranda kafelər mütəmadi bağlanır, buna Qərb musiqisinin səsləndirilməsi, qadın və kişilərin birlikdə rəqs etməsi, yaxud məcburi hicab taxmayan qadınlara xidmət göstərilməsi səbəb göstərilir.

Son aylar yeni dalğa müşahidə olunur.

İyunun əvvəlində polis Tehranın mərkəzində canlı musiqi ifa olunduğu üçün bir kafeni zorla bağlayıb. Kafenin adı açıqlanmasa da, polis onu "azğın dini cərəyanların" və "şeytani fəaliyyətlərin" təbliğində ittiham edib.

Martda məşhur "Lamiz" kafe şəbəkəsinin fəaliyyətini dayandırıb, kofe stəkanlarının üzərindəki dizaynlar siyasi baxımdan qəbuledilməz sayılıb.




Tehranda kafe

Hakimiyyət üçün məsələ kafeləri aşır. Bu məkanlar İranın dini rəhbərliyinin təbliğ etdiyi dəyərlərlə üst-üstə düşməyən həyat tərzinin simvoluna çevrilib.

Kafelərə təzyiqlər fərdi azadlıqların məhdudlaşdırılması çərçivəsində baş verir. İnsan haqları təşkilatları uzun illərdir İranı ifadə azadlığını məhdudlaşdırmaqda, qadınların

geyiminə ciddi qaydalar tətbiq etməkdə, rəsmi islam dəyərlərinə uyğun sayılmayan ictimai və mədəni fəaliyyətləri məhdudlaşdırmaqda tənqid edirlər.

## Üç məkan

Sərt mövqeyi ilə tanınan siyasətçi Səid Cəlili kafe mədəniyyətini Qərbin ailə institutunu zəiflətmək məqsədi daşıyan layihəsi adlandırıb.

**“Onlar üç məkan müəyyənləşdirirlər: yataqxana, iş yeri və tənhalıqdan qaçmaq üçün üçüncü məkan – məsələn, kafe”,** – Cəlili 2025-ci ilin dekabrında deyib.

“Bu konsepsiyada ailə öz mənasını itirir. Bu isə İslamın evlilik fəlsəfəsinə ziddir”, – o əlavə edib.

Tehranda 33 yaşlı kafe sahibi deyib ki, "hicab məsələsi kimi səbəblərə görə bağlanmaq riski hələ də qalır".

Amma bütün çətinliklərə baxmayaraq, bir çox kafelər hələ də doludur.

**“İnsanlar deyirlər ki, artıq nə pul yığa, nə də səyahət edə bilirik. Heç olmasa axşam kafedə vaxt keçiririk”,** – Tehranda yaşayan 40 yaşlı qadın Radio Fərda-ya söyləyib.

Bu gün İranda bir çox kafelər artıq təkcə qəhvə, çay və yüngül qəlyanaltılar təqdim etmir. Onlar kitab müzakirələri, film nümayişləri, canlı musiqi proqramları və digər mədəni tədbirlərin keçirildiyi məkanlara çevrilib. Cəmiyyətə inteqrasiya, yaradıcı özünüifadə imkanı axtaran gənclər bu tədbirlərə qatılırlar.

**“Bura həm müştərilər, həm də bizim üçün ikinci ev kimidir”,** – Tehrandakı kafe sahibi deyib.

*Məqaləni AzadlıqRadiosunun jurnalistləri Farangiz Nəcibulla və Hanna Kaviani hazırlayıblar.*

## Buna da bax:


Tramp Hörmüz boğazına nəzarəti ələ keçirməklə hədələyib

İllərin sanksiyalarına dözən İran çörək sınağında: Lavaş iki qat bahalaşıb

'Qadınlar artıq istədikləri kimi geyinirlər' – Tehranda hicab patrulları yoxa çıxıb

AzadlıqRadiosu © 2026 Inc. | Bütün hüquqlar qorunur